# SOCAR-AQŞ Milli Mətbuatın yaranmasının 140 illik yubileyi münasibətilə jurnalistləri təbrik etdi



İyulun 22-də SOCAR-AQŞ-nin baş inzibati binasında müəssisə ilə yaxından əməkdaşlıq edən və neft-qaz sahəsi üzrə ixtisaslaşan KİV nümayəndələri ilə görüş keçirildi.

Tədbir iştirakçılarını salamlayan SOCAR-AQŞ-nin baş direktoru Ramin İsayev jurnalistləri peşə bayramı münasibəti ilə təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı. R. İsayev bildirdi ki, ictimai maarifçiliyi özünə əsas hədəf seçmiş “Əkinçi” qəzetindən əsasını götürən müasir Azərbaycan mətbuatı öz inkişaf dövrünü yaşayır. “Sevindirici haldır ki, bu gün informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirməkdədir. Bu gün milli-mənəvi dəyərlərin təşviqi, gənc nəslin vətənpərvər ruhda böyüməsi və eləcə də ölkəmizin əldə etdiyi uğurların beynəlxalq aləmə çatdırılması baxımından Milli Mətbuatın müstəsna rolu vardır”.

Neft-qaz sahəsində ixtisaslaşan mətbuat orqanlarının inkişafı haqqında danışan R.İsayev bildirdi ki, SOCAR-AQŞ ötən il bu sahədə çalışan jurnalistlər üçün maarifləndirici təlim və “Əsrin Müqaviləsi”nin 20-ci ildönümü ilə bağlı neft-qaz sənayesinə dair müsabiqə keçirmişdir. Bu kimi təşəbbüslər jurnalistlərin bilik və bacarıqlarının inkişafına göstərilən diqqətin təzahürü olduğunu qeyd edən R. İsayev həmçinin bildirdi ki, SOCAR-AQŞ mətbuatla konstruktiv şəraitdə sorğu və suallarının operativ qaydada cavablandırılması istiqamətində fəaliyyətini bundan sonra da davam etdirəcəkdir.

Daha sonra SOCAR-AQŞ ilə fəal, səmərəli və operativ əməkdaşlıq edən 25 jurnalist diplom və hədiyyələrlə təltif edildilər.

Tədbirdə Milli Məclisin üzvləri Elmira Axundova, Vahid Əhmədov çıxış etdilər.

**M.MİRZƏ,**
**“Respublika”.**